# Xoyski Mediasiya Müsabiqəsi

# 2024

## MEDİASİYA PROBLEMİ - 1

Vebsayt: moot.bsulawss.org
E-poçt: moot@bsulawss.org

# TƏCHİZAT XİDMƏTİ MÜBAHİSƏSİ

## Ümumi faktlar

"Meqa Exclusive" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – Meqa) Azərbaycanda fəaliyyət göstərən və əsasən ictimai iaşə obyektlərini qida məhsulları ilə təchiz edən təchizatçı şirkətdir. Meqa ərazidə eksklüzivliyə[1] malikdir, yəni onun təchiz etdiyi məhsulların başqa hər hansı şirkət tərəfindən təchiz edilməsi mümkün deyil. "Şəms Supermarket" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – Şəms) isə 10 ildən çoxdur marketlər şəbəkəsi ilə fəaliyyət göstərir. Şəms hər il Azərbaycanın müxtəlif regionlarında ən azı 7 market açılışı ilə şəbəkəsini genişləndirir və ölkədəki ən böyük marketlər şəbəkəsi statusunu qoruyub saxlayır. Meqa ilə Şəms arasında imzalanan 01.01.2021-ci il tarixli MEŞS-01 nömrəli təchizat müqaviləsinə əsasən, Meqa Şəmsi "Günəşli" markasına aid meyvə suları ilə təmin edir.

Bir illik əməkdaşlıqdan sonra Şəms və Meqa arasında əldə olunan razılaşmaya uyğun olaraq 01.01.2022-ci il tarixində yeni müqavilə və Əlavə Razılaşma imzalanır. Əlavə Razılaşma əsasında yeni kommersiya şərtləri müəyyən olunur. Şərtlərə əsasən Meqa Şəmsə hər yeni market açılışına görə 500 AZN + ƏDV açılış haqqı ödəyir. Bunun qarşılığında açılışın partnyoru kimi öz məhsullarını və reklam stendlərini yeni açılan marketlərdə müştərilərin diqqətini çəkə biləcək nöqtələrdə yerləşdirir. Əlavə olaraq, hər market açılışında Meqadan meyvə suları sifariş olunmalıdır.

[1] Daha ətraflı bax: Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi, mad. 1.1.13 (2023).

Tərəflər arasında imzalanan yeni təchizat müqaviləsinin şərtinə əsasən, müqavilənin müddətinin bitməsinə 15 gün qalmış tərəflər müqaviləyə xitam verməklə bağlı qarşı tərəfə yazılı bildiriş göndərmədikdə müqavilə 1 il müddətinə eyni şərtlərlə uzadılmış hesab olunur. 2022-ci ilin dekabr ayında Şəms yeni kommersiya təklifi ilə Meqaya müraciət edir. Nəticədə, yeni market açılışına görə ödənilən məbləğin 700 AZN + ƏDV-yə qaldırılması ilə bağlı razılıq əldə olunur. 1 yanvar 2023-cü ildən yeni kommersiya şərti qüvvəyə minir.

2023-cü ilin yanvar ayından etibarən Şəms tərəfindən 7 ay içərisində qısa aralıqlarla 11 yeni market açılmış və bu marketlərdən 5-i açılışdan bir neçə ay sonra fəaliyyətini dayandırmışdır. Əməkdaşlığın ilk 2 ilində də bu cür hadisələr baş vermiş, həmçinin təchizat müqaviləsi üzrə ötən illərdən qalan pul öhdəliyinin ödənilməməsi halları yaşanmışdır. Bununla belə, Meqanın rəhbərliyi biznesdə bu tip problemlərin ola biləcəyini düşünərək əlaqələri zədələməmək məqsədilə sifarişlər əsasında məhsulları təchiz etməyə davam etmişdir.

Buna baxmayaraq, 2023-cü ilin iyun ayında indiyədək kəsilmiş elektron qaimələr əsasında Şəmsin ödəməli olduğu 11.854 AZN-in təmin edilməməsi səbəbilə Meqanın maliyyə departamentinin əməkdaşı tərəfindən Şəmsin maliyyə departamentinin əməkdaşına müraciət edilmişdir. Müraciət nəticəsində məlumat əldə olunmuşdur ki, Meqa yeni açılmış 8 market üçün açılış haqqı ödənişini təmin etmədiyi üçün Şəmsin ödəniş sistemi bloklanmışdır. Sözügedən 8 marketdən 4-ü açılışdan qısa müddət sonra fəaliyyətini dayandırmış marketlərdir. Bloklanma nəticəsində Şəms Meqaya ödəniş edə bilməmişdir. Şəmsin ödəniş sistemində blokun aradan qaldırılması üçün Meqa 8 marketin açılış haqları və ƏDV-sindən ibarət 6608 AZN-i

ödəməlidir. Yalnız bundan sonra blok açılacaq və Şəms tərəfindən gecikdirilən məbləğin ödənilməsi mümkün olacaqdır.